Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən əmin-amanlıqda olar, mühacir isə Allahın haram etdiklərini tərk edəndir”

Abdullah ibn Amrdan (Allah onların hər ikisindən razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən əmin-amanlıqda olar, mühacir isə Allahın haram etdiklərini tərk edəndir”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, İslamı kamil olan müsəlman - o kəsdir ki, digər müsəlmanlar onun dilindən əmin-amanlıqdadırlar, belə isə o onları söyməz, lənətləməz, onların qeybətini etməz, dili ilə onlara heç bir zərər yetirməyə çalışmaz. Onlar onun əlindən əmin-amanlıqdadırlar, onlara hücum etməz, onların mallarını haqsız yerə almaz və buna bənzər heç bir şey etməz. Mühacir isə Uca Allahın haram etdiklərini tərk edən kəsdir.

http://sunnah.global/hadeeth/az/show/10101